# XALQ RƏSSAMI ELMİRA ŞAHTAXTİNSKAYANIN YARADICILIĞINDA AĞACLAR SİLSİLƏSİ

**Sevinc Əliyeva**

*Bakı Xoreoqrafiya Akademiyası*
*eliyevasevinc88@mail.ru*

Azərbaycan Respublikasının Xalq rəssamı, istedadlı fırça ustası Elmira Şahtaxtinskaya (1930-1996) özündən sonra zəngin bədii irs qoyub getmiş rəssamlarımızdandır. Onun yaradıcılığı rəngarəng və çoxşaxəli olmuşdur. Rəssam əsasən mənzərə, məişət, portret janrlarında əsərlər işləmişdir. Elmira Şahtaxtinskaya təsviri sənətin rəngkarlıq və qrafika növlərində fəaliyyət göstərib. O, yağlı və sulu boya ilə, karandaşla maraqlı düşündürücü tablolar, rəsmlər, eskizlər işləmişdir. Rəssamın yaradıcılığında plakat janrı da mühüm yer tutmuşdur. Elmira Şahtaxtinskaya "Azərbaycan qədim mədəniyyət diyarıdır" plakatlar seriyası üzərində uzun illər işləmiş, müxtəlif ədəbiyyat, elm və mədəniyyət xadimlərimizin – Nizaminin, Məhsətinin, Əcəminin, Qətran Təbrizinin, Səfiəddin Urməvinin, Bəhmənyarın, Füzulinin, Şah İsmayıl Xətainin, Qara Qarayevin bədii cəhətdən mükəmməl, fəlsəfi tutumu ilə diqqət çəkən obrazlarını yaratmışdır.

Qeyd etdiyimiz kimi, Elmira Şahtaxtinskaya həm də mənzərəçi rəssamdır. Təbiət mənzərələri onun yaradıcılığında müstəsna əhəmiyyətə malikdir. Rəssam erkən gənclik yaşlarından mənzərə janrına maraq göstərmiş, əsasən sulu boya ilə lirik təbiət lövhələri yaratmışdır. Ötən əsrin 60-cı illərində Səttar Bəhlulzadənin çəkdiyi lirik mənzərələr Azərbaycan incəsənətində geniş şöhrət qazanmışdı. Bir çox rəssamlar – Kamil Xanlarov, Baba Əliyev, Mahmud Tağıyev, Nəcəfqulu İsmayılov və başqaları Azərbaycan təbiətinin gözəlliyini məhz lirik-romantik planda əks etdirməyə çalışırdılar. Gənc Elmira Şahtaxtinskaya da belələrindən idi. O, Azərbaycanın səfalı guşələrində, xüsusən Kiçik Qafqazda və Quba-Qusar zonasında yaradıcılıq ezamiyyətlərində, səfərlərdə olmuş, naturadan lirik mənzərə rəsmləri çəkmişdi. "Göygöl" (1960), "Quba yaxınlığında mənzərə" (1963) və başqa rəsmlər buna misal ola bilər.

Elmira Şahtaxtinskayanın təbiət sevgisi tədricən onun yaradıcılığında ağac obrazının formalaşmasına səbəb oldu. Əgər yaradıcılığının erkən dövründə rəssam səfalı təbiət mənzərələrinə meyl edirdisə, sonralar o, daha çox ağac təsvirləri işləməyə başladı. Əlbəttə, ağac təbiət mənzərəsinin mühüm komponentidir və tablonun lirik ahənginin qüvvətlənməsində bilavasitə iştirak edir. Elmira Şahtaxtinskayanın yaradıcılığının istər erkən, istərsə də yetkin dövrlərində ağac məhz bu kontekstdə təqdim olunur. Bunlar lirik planda

işlənmiş klassik təbiət mənzərələridir. Lakin Elmira Şahtaxtinskayanın yaradıcılığında ağac obrazı həm də bədii-fəlsəfi məzmun kəsb edir. Bir sıra kompozisiyalarında rəssam lirik mənzərə janrından uzaqlaşaraq ağacı nəhəng, qollu-budaqlı, bəzən tənha, bəzənsə qurumuş vəziyyətdə təsvir edir. Aydındır ki, bu rəsmlər nəinki lirik, hətta mənzərə janrına aid edilə bilməz. Rəssamın yaradıcılığının əsasən yetkin dövründə işlənmiş belə ağac obrazları daşıdığı məna yükü etibarilə daha çox fəlsəfi-əxlaqi məzmuna malikdir. Onların əksəriyyəti sulu boya ilə işlənmişdir. Rəssamın həmin rəsmləri "Ağaclar silsiləsi" adını almışdır. Lakin zənnimizcə, bu silsiləni "Ağac obrazları" adlandırmaq məzmunun fəlsəfi izahı baxımından daha dürüst səslənərdi. Çünki bu silsiləyə daxil olan rəsmlərdə ağac həqiqi obraz kimi çıxış edərək, özündə insan və aləm, keçmiş və gələcək, sələflər və xələflər kimi fəlsəfi-əxlaqi motivləri əks etdirir.

Azərbaycan təsviri sənətində ağac obrazını fəlsəfi-psixoloji müstəvidə əks etdirən rəssamların sayı az deyil. Ağac obrazına fəlsəfi baxış Rasim Babayev, Cavad Mircavadov, Əyyub Hüseynov, Fərhad Xəlilov, Arif Əziz, Siruz Mirzəzadə, Zakir Hüseynov, Şamo Abbasov, Nağdəli Xəlilov kimi rəssamların yaradıcılığında xeyli geniş yayılmışdır. Həm də bu rəssamların əksəriyyəti sənətə ümumiyyətlə fəlsəfi kontekstdə yanaşmağa üstünlük verirlər. Elmira Şahtaxtinskaya isə ağaca fəlsəfi yanaşmaya realist sənətdən gəlmişdir. Onun yaradıcılığında ağac obrazının lirik mənzərədən fəlsəfi-psixoloji tutuma doğru meyllənmiş transformasıyasını rəssamın bədii üslubunun və dünyagörüşünün inkişafı kimi qəbul edə bilərik.

Elmira Şahtaxtinskayanın yetkin dövr yaradıcılığına aid ağac rəsmlərinə diqqət yetirək. Öncədən vurğulayaq ki, Elmira Şahtaxtinskaya hələ gənclik illərindən ağacda kifayət qədər güclü bədii-fəlsəfi məzmun olduğunu görüb hiss edirdi. Əslində ağac milli məişətimizdə, folklorumuzda hər zaman rəmzi xarakter daşımış, bəzən hətta müqəddəsləşdirilmişdir. Milli-mənəvi inancımıza görə ağac əkmək savab, ağac kəsmək isə günah hesab olunur. "Qədir ağacı" ifadəsi dilimizdə geniş yayılıb. Pirlərdə, ocaqlarda ağaca iman gətirmək, budağına parça bağlayıb niyyət, iltimas, arzuya çatmaq üçün dua etmək mənəvi paklıq nişanəsi olmaqla yanaşı, həm də milli adət-ənənədən irəli gəlir. Bu mənada ağac həm də muraddır. Folklorda rəmzi məna kəsb edən meyvələr – alma, nar heyva – ağacların məhsuludur. Ağac həm də dünən ilə bu gün arasında körpü, nəsil şəcərəsi deməkdir. "Şəcərə" sözü ağac mənasını verir. Bunu rus dilindəki "drevo" sözü ilə müqayisə etmək olar. Ağacla bağlı atalar sözləri, zərbi-məsəllər kifayət qədərdir.

Günümüzdə ağac həm də nisbətən yeni – ekoloji məna kəsb etmişdir. Ekoloji tarazlığın qorunmasında, torpaqların eroziyasının qarşısının alınmasında, iqlimin mülayimləşdirilməsində ağacın rolu çox böyükdür, bəlkə də həlledicidir.

Bütün bu həqiqətlər Elmira Şahtaxtinskayanın ağaclar silsiləsində fəlsəfi kontekstdə öz əksini tapır. Biz yuxarıda rəssamın hələ gənclik yaşlarında ağaca olan fəlsəfi münasibətini vurğuladıq. Nümunə kimi, onun 1957-ci ildə yaratdığı "Ağaclar" rəsmini qeyd etmək olar. Bu əsər tipik mənzərə janrındadır. Lakin ağaca olan fəlsəfi baxış artıq bu erkən dövr rəsmində özünü büruzə verir. Rəsmdə iki ağac təsvir olunub. Bunlardan biri hələ çox boy atmamış cavan ağacdır. Digər ağac isə qocadır və artıq qurumuşdur. Tamaşaçı rəsmdə qoca ağacın gövdəsini deyil, yuxarıdan sallanan quru budaqlarını görür. Əsərin fəlsəfi məzmunu nəsil dəyişkənliyini əks etdirir. Qoca nəsil tədricən ölüb gedir, onun yerini isə gənc nəsil tutur.

Ağaclar silsiləsindən olan başqa bir rəsm əsəri 1980-ci ildə çəkilib. Rəssam burada fəlsəfi məzmuna yaradıcılığına xas olan lirik ahəng qatmışdır. Belə ki, ağac gövdələri çılpaq qadın fiqurlarını xatırladır. Burada sanki üç-dörd qadın çimməyə hazırlaşır. Kompozisiyanın əsrarəngiz görünüşü, kontrast rənglərin yaxın təması əsərə sentimentalizmə xas əhvali-ruhiyyə bəxş edir (şəkil 1).

Elmira Şahtaxtinskayanın "Köhnə tut ağacı" (1976), "Şamaxı yaxınlığında alçalı pir" (1988), "Köhnə Şağanda" (1980) rəsmlərində ağac təsvirləri kompozisiyanın əsas və bəzən yeganə obrazları kimi çıxış edir. Rəssam əsərlərin adlarında Şamaxı, Şağan kimi yaşayış məskənlərinin adlarını çəksə də, əslində burada demək olar ki, yalnız ağaclar təsvir olunub. Həm də bu ağaclar qeyri-adi, ekspressiv görünüşə malikdir. Ağaclar insana bənzəyir və elə rəssam da onları bu cür təqdim etmək istəmişdir. "Köhnə tut ağacı" rəsmində ağacın qocaman, parçalanmış, yoğun gövdəsi üz-üzə dayanmış qadını və kişini xatırladır. Obrazlı olaraq onları nəslin ağsaqqalı, ağbirçəyi hesab edə bilərik. Ətrafa uzanan nisbətən cavan qol-budaqlar isə nəslin orta və gənc yaşlı nümayəndələridir. Burada tut ağacı bütöv bir nəsil şəcərəsi, canlı tarix kimi təqdim edilmişdir.

"Köhnə Şağanda" rəsmində təsvir olunmuş qoca, gövdəli ağac bütün kompozisiyanı başdan-başa tutmuşdur. Ağacın kələ-kötür gövdəsi, əcaib görünüşü ekzistensial əhvali-ruhiyyə yaratmaqla yanaşı, həm də onun əsrlərə şahidlik etməsindən xəbər verir. Ağac sanki yüz yaşlı qocanı xatırladır. Ağacı Rasim

Babayevin tablolarındakı bədheybət div surətinə də bənzətmək mümkündür. Arxa planda uçulub dağılmış Şağan qalası görünür (şəkil 2).

Sonda bir daha vurğulayaq ki, Elmira Şahtaxtinskayanın yaradıcılığı zəngin və çoxcəhətli olmuşdur. Rəssamın yaratdığı bir çox mənzərə və portret əsərləri, məişət lövhələri bu gün də öz yüksək bədii dəyərini qoruyub saxlayır. Ağaclar silsiləsi rəssamın yaradıcılığının bir hissəsi olmaqla, özündə zəngin rəmzi və bədii-fəlsəfi məzmun əks etdirir. Bu məzmun geniş məna çalarlarına və yozum istiqamətlərinə malikdir. Zənnimizcə, burada üstün olan insanın dünəni və bu günü konsepsiyasıdır. Qoca ağaclar və cavan pöhrələr insan həyatını, onun ömür yolunu, nəsil dəyişməsini məcazi surətdə əks etdirir.



**Şəkil 1.** "Ağaclar silsiləsi"ndən.
Karton, quaş. 1980.



**Şəkil 2.** "Köhnə Şağanda".
Kağız. Qarışıq texnika. 1980.